# Danış ki, səni görüm

## (Fəxrəddin Sərrastla (Usenov) səmimi söhbət)

**İlqar Daşdı Müzəffəroğlu**
AJB üzvü

*Xeyli müddətdir ki, təvazökar, ziyalı, ağır otur-batman gəl xarakterli, şair inanclı insan, Gəncə Dövlət Universitetinin tarix fakültəsinin dosenti Fəxrəddin Sərrastla (Fəxrəddin Usenov) Gəncə şəhərində həmsöhbət olurduq. Onun mənalı, məntiqi söhbətlərindən doymaq olmur, hər görüşdə mənə xoş təəssüratlar yaradırdı. Nəhayət, qarşımda məqsəd qoydum ki, bu nurani ziyalının daxili dünyasının qapısını mümkün olduğu qədər oxucuların üzünə açım. Budur, Fəxrəddin müəllimlə iş otağında qarşı-qarşıya əyləşib, şirin-şirin söhbətə başlayırıq:*

**(ardı gələn sayımızda)**



**- Həyatın mənasını nədə görürsünüz?**

- İnsan var ki, həyatda yaşayır, insan da var onda həyat yaşayır. Həyatın mənasını dərk edənlər əsl insanlardır. O insanlar ən çox cəmiyyət üçün, xalq və vətən üçün yaşayırlar. Məsələn: Şəhidlərimiz həyatı ən gözəl həyatı başa düşənlərdir, anlayanlardır. Özünü dərk etmək üçün həyat və cəmiyyət mərhələlərini keçməlisən. Bunsuz mümkün deyil. Bu sınaqlardan keçməyi bacaranlar anlayıb, dərk edirlər. Qeyriləri həyatda yaşamırlar, həyat onlarda yaşayır. Onlar, ölməmiş unudulur, tanınmır, necə deyərlər canlı ölüdən fərqləri yoxdur. Bir sözlə, mən həyatın mənasını Vətən, xalq, cəmiyyət və özü üçün çalışmaqda görürəm.

**- Qəriblər kimlərdir?**

- O kəslər qəribdir ki, vətənindən, el-obasından uzaqdır. Bir də o kəslər qəribdir ki, onların kimi-kimsəsi yoxdur. İnsanlar içində tək olmaq qəriblikdir. Sən heç kimi anlama, heç kim də səni, bu dəhşətdir.

**- Qismətinizdə həyat yolunuzun rolu və ya əksinə, həyat yolunuzda qismətinizin rolu?**

- Həyat yolunda qismət həlledicidir, əsasdır, dəyişməzdir. Həyat yolu isə ikinci dərəcəlidir, köməkçidir. Həyat yolu təsadüfdən və zərurətdən dəyişə bilər, yaxud təzədən başlayar. Qismət isə dəyişmir, yenidən yazılmır. Çox vaxt həyat yolu qismətə təsir etmir. Bunların dialektikasına gəldikdə belə qənaətə gəlinir ki, həyat yolu qismətdən asılıdır, qismət həyat yolunu təyin edir. Həyat yolu dəyişkən və mütərrikdir.

**- Şükranlığa necə baxırsız?**

- Müsbət baxıram. İnsanın nəyi varsa birinci növbədə özünə şükür eləməlidir. Şükranlıq bir növ qədir bilmək, qiymətləndirmək, dəyərləndirməkdir. Sənə verilən ömrə, can sağlığına, qismətinə, nemətinə şükür etmək boynunun borcudur. İnsan tək olan Allaha şükür etməlidir. Çünki, O, sənə bəxş etdiyi səni var edən nə varsa, hamısını qarşılıqsız bəxş edib. Çətinliyə asi olmayanın ömrü şükranlıqla keçər.

**- Müasir dünyada razılaşmadığınız məqamlar varmı, varsa onlar hansılardır?**

- Müasir dünyanın nizamı pozulmasından çox narazıyam. Dünyanın yazılmış və yazılmamış qanunlarına əməl edilmir. Demək olar ki, hal-hazırda dünya zorakılıqlarla idarə edilir. Dünyanın sülh adlı əsas qanununda pozulma varsa, söhbət hansı razılıqdan gedə bilər? Ədalətli, haqqhüququnu bilənlər çətinliklər içində yaşayır. Böyük-kiçik yerdəyişmə edib. Və bütün bunun nəticəsidir ki, yaxşıların sayı getdikcə azalır. Yaxşıların boş qalan meydanında yamanlar at çapır. Güclünün vəzifəsi gücsüzü əzməkdir qanunu ilə dönən dünyadan razı qalmaq üçün gərək özün də o qanunlarla hərəkət edəsən. Dünyanın qanunu pozanlar bizim ölkəyə kölgə salacaq ifadələr işlətməsi ilə heç razı deyiləm. Fəxr edirəm ki, mən dünyanın məhz Azərbaycan adlı ölkəsinin vətəndaşıyam.

**- Musiqini sevirsinizmi və ya hansı janrda musiqini dinləməyə üstünlük verirsiniz?**

- Musiqi bəşəri dildir. Əgər mən bu gün Fransız əsilli Şopenidinləyirəmsə demək Fransız dilini bilirəm, əgər mən bu gün Avstriya əsilli Mozartıdinləyirəmsə Avstriya dilin bilirəm, əgər dünya ölkələri bizim muğamımızı dinləyirsə demək Azərbaycan dilini bilirlər. Musiqinin vətəni olmur, o dünya səyahətinə çıxmış bir səyyah kimi daim ölkələri gəzir. Bu qədər zəngin bir yaradıcılığı, ruhun qidasını sevməmək olarmı?! Əlbəttə ki, yox. Sevdiyim janrlar isə öz miili dəyərimiz, folklorumuz olan saz musiqisi və kimliyimizi dünyaya tanıtdıran muğamımızdır.

**- Qarşıdan milli bayramımız olan Novruz bayramı gəlir. Bu bayramın gəlişi sizdə hansı hissləri oyadır?**

- Bayramların hər biri gözəldi. Bayram var xoş əhval yaradır, bayram da var qəhrəmanlıq duyğuları və coşqun hissləri ilə dolub-daşır. Bayramlar insanları doğmalaşdırır, yaxınlaşdırır, küsənləri barışdırır, bolluq yaradır, sülh, əminamanlıq bəxş edir. Bolluq olanda bayramlar da daha yaddaqalan, gözəl qeyd olunur. Kasıblıq, yoxsulluq olduqda isə istər-istəməz bayram abu-havası azalır. Molla Pənah Vaqif demişkən:

**Bayram oldu, heç bilmirəm neyləyim...**
**Bizim evdə dolu çuval da yoxdur.**
**Düyüylə yağ hamı çoxdan tükənmiş,**
**Ət heç elə düşməz, motal da yoxdur.**

**Allaha bizmişik naşükür bəndə,**
**Bir söz desəm, dəxi qoymazlar kəndə.**
**Xalq batıb noğula, şəkərə, qəndə,**
**Bizim evdə axta zoğal da yoxdur.**

**Bizim bu dünyada nə malımız var,**
**Nə evdə bir sahibcamalımız var.**
**Vaqif, öyünmə ki, kamalımız var,**
**Allaha şükür ki, kamal da yoxdur.**

Ancaq Novruz bayramı digər bayramlardan fərqlənir. Ən əsası da, bu bayram dünya türklərinin bayramı-dərədən yol tapıb çıxdıqları gündür. Həm də, Novruz yeni gün, yeni fəsil deməkdir. Yazın gəlişi ilə oyanan bərəkətli torpaqlarımıza baxdıqca insanın əhval-ruhiyyəsi əsl bayram abuhavasına köklənir.

**- Novruz bayramına aid şeiriniz varmı?**

- Şeir ovqat hadisəsidir. O insana iki halda gəlir. Ən sevincli və ən kədərli məqamında. Yazın gəlişi, torpağın oyanışı, quşların nəğməsi insana necə müsbət təsir göstərə bilməz ki?! Təbii ki, bu sevincin məhsulu şeirim var.

### XOŞ GÜNLƏR GƏLİR

**Yazın nəfəsiylə gülür təbiət,**
**İlham pərvaz edir, şeiriyyət gəlir.**
**Könüllər mülkündə coşur xoş niyyət,**
**Qəlblər duyğulaşır, ünsiyyət gəlir.**

**Yamyaşıl geyinir bağçalar, bağlar,**
**Yenə şır-şır axır ayna bulaqlar.**
**Zəmilərdə sünbül, bostanda tağlar,**
**Məhsul aşıb-daşır, bol qismət gəlir.**

**Çöl-çəmən canlanır, yazdan ruh alır,**
**Sevən ürəklərdə fərəh ucalır,**
**Bahar göz açanda qış da, qocalır,**
**Bitib-tükənməyən var-dövlət gəlir.**

**Aydın səmalardan nurlar tökülür,**
**Yaşıl yamaclardan duman çəkilir.**
**Otlar baş qaldırır, torpaq əkilir,**
**Bu gün Qarabağa toy-büsat gəlir.**

**Ocaqlar qalanır, bayramlıq bişir,**
**Gecəylə gündüz də bərabərləşir.**
**Fəsillər dəyişir, zaman dəyişir,**
**Xoş günlər, xoş anlar, xoş saat gəlir.**

**Otuz il Şəhidlər verib ağladıq,**
**Matəmlə yaşadıq, yas da saxladıq.**
**Tək Ulu Öndərə ümid bağladıq,**
**Ümid qapısından bir həyat gəlir.**

**Mən də bu sevincdə yazdım, yaratdım,**
**Zəfər müjdəsiylə kamıma çatdım.**
**Sevincdən ömrümə ömürlər qatdım,**
**Çox şükür xalqıma bərəkət gəlir.**

**Rəhbərin eşqiylə gəlir dövranlar,**
**Nə qədər xoşbəxtdi azad insanlar.**
**Daha eşidilmir ahlar, fəqanlar,**
**Fəxrəddin, yerinə səadət gəlir.**

**- Bahardan söz düşmüşkən, bu il aprelin 3-də 78 yaşınız tamam olur. Ömrünüzün 78-ci baharını hansı hisslərlə qarşılamağa hazırlaşırsınız?**

- İnsan ömrü uzun, ya qısa olmasına baxmayaraq həyat o qədər şirindir ki, elə bilirəm 3 apreldə yenidən dünyaya gələcəyəm və bu ömrü yenidən yaşayacağam. Ancaq yaşadığım müddətdən fərqli olaraq bu dəfə plansız yox, planlı şəkildə doğulacağıma inanıram. Planımda isə daha mənalı yaşamaq, yaratmaq, insanlara qarşı da ədalətliadil olmaq, dostlarımla daha çox ünsiyyətdə olmaq öncəlik təşkil edir.

**- Dediyiniz kimi, yenidən dünyaya gəlsəydiniz hansı peşəni seçərdiniz?**

- Xalqıma xidmət edən müəllim peşəsini.

**- Suallarıma münasibətiniz?**

- Maraqlı nüanslara toxundunuz. Ən əsası müsahibinizin cavlarını öncədən bilirmişsiz kimi suallar verdiniz.

**- Oxuculara tövsiyələriniz?**

- Fəxrəddin kimi tövsiyyəm, can sağlığınızı qoruyun və çalışın zamanın nəbzini tutmaq üçün daim mütaliə edin. Bir də Cəmaləddin Rumi demiş "Ya göründüyünüz kimi olun, ya da olduğunuz kimi görünün"

**- Maraqlı müsahibəyə görə təşəkkür edib, sizə həyat və yaradıcılıq uğurları arzulayıram.**